## Asiya İnkişaf Bankı Azərbaycana investisiya qoyuluşunu artırır

Azərbaycanın 1999-cu ildən üzvü olduğu Asiya İnkişaf Bankı (AİB) Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı (CAREC) çərçivəsində ölkəmizdə Yevlax-Gəncə və Qazax-Gürcüstan sərhədi avtomobil yollarının bərpa və genişləndirilməsi, «Dəmir yolu ticarəti» və «Daşımalara dəstək» layihələrini, habelə «Şəhər su təchizatı və kanalizasiya» layihəsini, «Elektrik enerjisinin ötürülməsi sisteminin yaxşılaşdırılması» layihəsini, Gəncə dairəvi avtomobil yolunun tikintisini və digər layihələri maliyyələşdirir. AİB onillik (1999-2009) əməkdaşlıq dövrü ərzində Azərbaycana 600-700 mln. ABŞ dolları civarında vəsait, o cümlədən 11,5 mln. dollar qrant ayırıb. Bankın Azərbaycan üzrə aktiv kredit portfeli hazırda 990 mln. dollar təşkil edir. AİB-in Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Olli Noroyono mətbuata açıqlamasında bildirib ki, Azərbaycan AİB üçün vacib və əhəmiyyətli ölkədir: «Hazırda bizim Azərbaycanda 7 layihə üzrə ümumi aktiv portfelimiz 990 mln. dollar təşkil edir. Potfelin 46%-i nəqliyyat, 38%-i su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması, 16%-i isə enerji sektorlarını əhatə edir».

2012-ci ildə AİB Azərbaycana 1,125 mln. dollar məbləğində texniki yardım göstərib. Bunun 225 min dolları yol layihəsi çərçivəsində, 900 min dolları isə Bakı şəhərinin nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün ayrılıb. Bununla yanaşı, AİB tərəfindən Azərbaycanda dövlət qulluqçularının biliklərinin artırılması da maliyyələşdirilib: müxtəlif kredit layihələri çərçivəsində 64 nəfər hökumət işçisinin təcrübə və biliklərini artırmaq üçün onların müxtəlif seminar, treninq və konfranslarda iştirakına dəstək göstərilib.

AİB-in Azərbaycan üzrə «Biznes planı»na toxunan O.Noroyono qeyd edib ki, bu plana əsasən 2012-ci ildə Azərbaycana 250 mln. dollar, 2013-cü ildə 155 mln. dollar, 2014-cü ildə isə 170 mln. dollar vəsait ayrılması nəzərdə tutulub. Üç il ərzində bank Azərbaycana 3,250 mln. dollar məbləğində texniki yardım da göstərəcək. «Zərurət yaranarsa, bu rəqəmlər dəyişə bilər», - O.Noroyono əlavə edib.

Onu da bildirək ki, gələn il AİB ilə Azərbaycan arasında tərəfdaşlıq strategiyasının imzalanacağı nəzərdə tutulur. Strategiya 2013-cü ildən başlayaraq növbəti 5 ili əhatə edəcək. Azərbaycan üzrə yeni tərəfdaşlıq strategiyası AİB üçün çox əhəmiyyətli və vacib sənəd hesab edilir. İndi sənədin Azərbaycan hökuməti ilə razılaşdırılması prosesi gedir. Burada, əsasən, infrastruktur sahələrini əhatə edəcək sektorlara üstünlük veriləcək.

2013-cü ilin ilk rübündə AİB-lə Azərbaycan hökuməti arasında razılaşma sənədinə dair məsləhətləşmələr aparılacaq və əməkdaşlığın prioritet sahələri müəyyənləşəcək. AİB-in Azərbaycan üzrə yeni tərəfdaşlıq strategiyası Azərbaycan hökumətinin «Azərbaycan-2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun hazırlanır. Xatırladaq ki, bundan əvvəl tərəflər hər il yenilənən fəaliyyət strategiyası çərçivəsində əməkdaşlıq edirdilər, təzə ildən isə əməkdaşlıq yeni tərəfdaşlıq strategiyası çərçivəsində davam etdiriləcək.

Qeyd etdiyimiz kimi, 2013-cü ildə AİB-in Azərbaycanda fəaliyyəti su təchizatı, kanalizasiya, enerji və nəqliyyat sektorları istiqamətinə yönəldiləcək. Nümayəndəlikdən bildirilib ki, AİB-in ölkədəki fəaliyyəti Azərbaycan hökumətinin inkişaf prioritetlərinə uyğundur.

Bank Azərbaycanda «Su təchizatı və kanalizasiya sistemi üçün İnvestisiya Proqramı» çərçivəsində «Azərsu» ASC üçün «Tvinninq» layihəsi hazırlayıb. Layihənin icrasına 2013-cü ildə başlanacaq və «Su təchizatı və kanalizasiya sistemi üçün İnvestisiya Proqramı» ilə birgə başa çatacaq. «Tvinninq» layihəsi istismar, texniki xidmət və maliyyə nəzarəti kimi aspektləri özündə birləşdirir.

Sözügedən İnvestisiya Proqramı çərçivəsində Ağdaş, Göyçay, Naxçıvan, Beyləqan, Balakən və Ağcabədidə su təchizatı və kanalizasiya-sanitariya xidmətlərinin keyfiyyət və etibarlılığı təmin olunacaq. Bu məqsədlə Azərbaycan hökumətinə 600 mln. dollar həcmində vəsait ayrılması nəzərdə tutulub ki, bundan 375 mln. dolların verilməsi artıq təsdiqlənib. İlk tranş 75 mln. (Naxçıvan, Göyçay, Ağdaş), ikinci tranş 300 mln. dollar təşkil edir. Bu məbləğin 130 mln. dolları Naxçıvan, 170 mln. dolları isə Göyçay, Ağdaş və Beyləqan rayonları üçün nəzərdə tutulub. Üçüncü tranşın məbləğinin 150 mln. dollar olacağı planlaşdırılıb. Hazırda «Azərsu» ASC ilə danışıqlar aparılır. Üçüncü tranş Balakən və Ağcabədi rayonları üçün ayrılacaq. Qalan vəsaitin (75 mln. dollar) isə yeni, dördüncü tranş qismində ayrılacağı gözlənilir.

Arzu İBRAHİMOVA